# Donald Tramp: "Qazaxıstan rəsmi olaraq İbrahim sazişlərinə qoşulmağa razılıq verib"

**"Qazaxıstan rəsmi olaraq İbrahim sazişlərinə qoşulmağa razılıq verib və imzalanma mərasimi tezliklə keçiriləcək". ABŞ Prezidenti Donald Tramp bunu 2023-cü ildən sonra dövlət başçıları səviyyəsində İkinci ABŞ-Orta Asiya Sammiti çərçivəsində Ağ Evdə keçirilən qala şam yeməyi zamanı açıqlayıb.**

Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev görüşdə iştirak ediblər.

Dövlət başçıları səviyyəsində İkinci ABŞ-Orta Asiya Sammitinin açılışında çıxış edən Tramp İbrahim sazişlərinin Yaxın Şərq və digər bölgələr üçün əhəmiyyətini vurğulayıb. "Qazaxıstanın İbrahim sazişlərinə qoşulmağa rəsmi olaraq razılıq verdiyini elan etməkdən məmnunam. Bu, rəsmi xəbərdir. Təxminən 15 dəqiqə əvvəl güclü lideri olan böyük bir ölkə rəsmi olaraq İbrahim sazişlərinə qoşulub. Bu, böyük şərəfdir. Sizinlə birlikdə olmaq mənim üçün həqiqətən şərəfdir", - deyə Tramp bildirib. ABŞ liderinin sözlərinə görə, Qazaxıstanın İbrahim sazişlərinə qoşulması üçün rəsmi imzalanma mərasimi tezliklə baş tutacaq.

İbrahim sazişləri 2020-ci ildə ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə hazırlanıb. Sazişin ilkin məqsədi ərəb ölkələri ilə İsrail arasında normallaşma prosesini başlatmaq olub.

Bu il mayın 13-də ABŞ sazişin daha geniş ərazini əhatə edəcəyini açıqlamışdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 8 noyabr (№ 239).- S.20.